# Olur

— *Doktor-Yazar İlhamə Müslümova* · 23 Kasım 2024



Mən neyləyim... həmişə
Qismətimdə göz olur,
Hər uğurun sonunda
On düşmənim yüz olur ))

Hamını yoxlayıram,
Dostu qucaqlayıram...
Məsafə saxlayıram,
Danışmağa üz olur...

Sözüm qəlbə dəyərsə,
Ağlım məni söyərsə ,
Niyə etdin deyərsə
Ürəyim köz-köz olur...

Xırdalayıb üyütsəm...
Olanları böyütsəm...
Etmirəm ki... gər etsəm
Aralıqda söz olur...

Sözlərimə gülürlər,
Paxıllıqdan ölürlər,
Amma yaxşı bilirlər
Hər nə desəm düz olur…
Dr.İlhamə Müslümova